Rizvan QARABAĞLI
AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, memarlıq üzrə fəlsəfə doktoru, dosent

Naxçıvanda məscid memarlığı

"Dünyada böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər, çünki imkanları yoxdur... Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir. Əgər dövlətçilik o qədər yüksək səviyyədə olmasaydı, onlar bu cür abidənin yaradılması barədə qərar qəbul edə bilərdilərmi?"

Heydər Əliyev

Naxçıvan. Bu adın etimologiyası və qədim insanların ilk yaşayış məskəni kimi tanınması, ulu tarixin dərin qatlarına əsrlərə, qərinələrə söykənir. Onun təmiz havası, saf sulu bulaqları, başı buludlara dəyən vüqarlı dağları, yaylaqları, min dərdə dərman gülləri, çiçəkləri, bura gələn müsafirləri heyran edir. Təbii gözəlliyi, yeraltı və yerüstü sərvəti, zəngin mətbəxi və qonaqpərvərliyi ilə də tanınan Naxçıvan, həm də elm, mədəniyyət, memarlıq və incəsənət beşiyi kimi Şərqin qapısı sayılır və Azərbaycan adlı məmləkətin şöhrətini dünya səviyyəsinə qaldırır. Elə bu baxımdan da, 2018-ci ildə Naxçıvan şəhəri, "İslam mədəniyyətinin paytaxtı" elan edilmişdi.

Araşdırmalar göstərir ki, Ermənistan tərəfindən uzun müddət blokadada saxlanmasına baxmayaraq, çağdaş Naxçıvan Muxtar Respublikası geniş miqyaslı iqtisadi inkişaf yolu keçib. Bununla yanaşı, burada dini-mənəvi dəyərlərin, tarixi abidələrin qorunması və bərpasına da xüsusi önəm verilib və indi də verilir. Son vaxtlar Naxçıvanda Ulu Öndər Heydər Əliyevin adını daşıyan məscidlərin inşa edilməsi də belə dini-mənəvi dəyərlərə verilən diqqət və qayğının bariz nümunəsidir.

Ümumiyyətlə, məscidlər islam aləmində müsəlmanların kütləvi və ya tək halda Allaha ibadət etməsi üçün inşa edilmiş memarlıq tikilisidir. Onlar xüsusi memarlıq həllinə malik olmaqla günbəzli və minarəli şəkildə inşa edilir. Minarə və günbəzlərin sayı məscidin kompozisiya və həcm-məkan üslubuna görə dəyişə bilər. Məscidlər çox zaman daxili həyətə malik olurlar. İstər həyət və istərsə də məscidin daxili və xarici divarlarında təsvirin olması yasaqdır. Bu yerlərdə kristolloqrafik, həndəsi, nəbati naxışlar və ya quran ayələri yazıla bilər. Məscidlər bir qayda olaraq Məkkə istiqamətində inşa edilməli və ibadət zalında bu istiqaməti göstərən mehrab olmalıdır. Mehrablar adətən nişa (divarda boşluq, taxça)

Şəkil-1. Şuşada Yuxarı Gövhərağa məscidi Şəkil-2. Şuşada Aşağı Gövhərağa məscidi

şəkilində olur. Çox vaxt yuxarı hissəsi tağbənd formada tamamlanır və ətrafı haşiyə ornamentləri ilə bəzədilir. Bəzi tarixi səyyahların əsərlərində qeyd edilən "mehrab" sözü də "məscid" mənasını daşıyır. Bununla yanaşı, böyük camelərdəki mehrabın sağ tərəfində mütləq minbər qurulur ki, bu da din xadimlərinin müsəlmanlara xütbə oxuması, müraciəti üçündü. Bəzi böyük məscidlər (camelər) qarşısında mədrəsə də fəaliyyət göstərir.

Bəs ilk məscid nə vaxt və harada tikilib? Öncə onu xatırladaq ki, İslamın ilk çağlarında məscid olmamışdı. Bu baxımdan, Allaha ibadət və namazın qılınması üçün ətrafı cızıqlanmış açıq yer seçilirdi. Lakin sonralar Məhəmməd peyğəmbər Mədinəyə hicrət edən zaman Quba adlanan yerdə bir neçə gün qalır və o, burada bir məscid inşa etdirir. Məscid müasir dövrümüzə qədər "Quba məscidi" kimi tanınır. İslamın inkişafı dövründə Allaha ibadət etmək üçün Məhəmməd peyğəmbərin Mədinədəki evini xatırladan məscidlər də inşa edilmişdi.

VII əsrin sonundan başlayaraq funksiyasından asılı olaraq məscidlər arasında müəyyən həcm-məkan fərqləri yarandı. Məsələn, gündəlik beş dəfə namaz qılmaq üçün "Məhəllə məscidi", cümə günləri kol-

Şəkil 3. Memar Kərbəlayi Səfixan Qarabağı (Rəsm Rizvan Qarabağlınındır)

Şəkil 4. İstanbulda Sultan Əhməd məscidi

lektiv namaz qılmaq üçün "Cümə məscidi", "Kəbirə" adlı mərkəzi şəhər məscidi və dini bayramlar üçün nəzərdə tutulan açıq meydanlı ümumşəhər məscidləri... Onu da xüsusi qeyd edək ki, məscidlərin inşasında ciddi memarlıq və konstruksiya tələbləri var. Əsası budur ki, onlar qeyri-dini məbədlərə bənzəməməli, forması maksimum sadə

Şəkil 5. Quba rayonunun Qəçrəş kənd məscidi

Şəkil 6. Culfa rayonu Əmrəqunus kənd məscidi

Şəkil 7. Ordubad rayonunun
Nüsnüs kənd "Qırx kimsənə" məscidi

olmalı və ərazi baxımdan xalqın çoxalması nəzərə alınmalıdır. Bununla yanaşı, məscidlərdə minarələr də əsas nəzərə çarpan qurğudur. Sayına görə onlar birdən doqquza qədər, tikildiyi məkandan və memarlıq üslubundan asılı olaraq bir-birindən fərqli ola bilər. Adətən minarələr məscidin baş və arxa fasadının yanlarında olur.

Minarələrin arxa fasadda olmasına əsas səbəb adətən məscidin ön tərəfində mədrəsənin olmasıdır. Şuşa məscidləri timsalında bunlar aydın görünür (Şəkil 1,2). Şəkildən göründüyü kimi, Yuxarı Gövgərağa məscidinin minarələri ənənəvi olaraq baş fasadda inşa edilib. Aşağı Gövhərağa məscidində isə əksinə, arxa fasadda ucaldılıb. Çünki bu məscidin önündə mədrəsə yerləşir. Yeri gəlmişkən qeyd edək ki, hər iki məscidin memarı Kərbəlayi Səfixan Qarabağidir (Şəkil-3).

Şəkil 8 .Babək rayonunun Nehrəm kənd məscidi

Çoxsaylı əhali tutumuna və müxtəlif funksiyalı kompozisiyasına görə seçilən məscidlərdə minarələr yan fasadları boyu düzülə bilər Şəkil-4. Bəzən minarələr və ya minarəyə bənzər qüllələr məscidin dam örtüyünün üstündə olur. Belə konstruksiya və memarlıq həllinə malik olanlara, əsasən, məhəllə və kənd məscidlərində rast gəlinir Şəkil-5. Bəzən də kənd və məhəllə məscidləri tək minarəli olur. Azərbaycanın müxtəlif şəhərlərində, o cümlədən Naxçıvanın özündə və rayon mərkəzlərində, tək minarəli məscidlər kifayət qədərdir. Şəkil 6,7,8, 14,15.

Minarələrinin sayı ilə yanaşı onların bədii memarlıq və konstruksiya həlli müxtəlif ol-

Şəkil 9. Atabəylər Camesi

duğu kimi, müsəlman aləmində yayılma arenaları da müxtəlifdir. Məsələn, iki minarəli və iki günbəzli məscidlər Yaxın və Orta Şərq, Mərkəzi Asiya, portalı böyük və üzərindəki minarələri nisbətən kiçik olan məscidlər isə İran memarlığı üçün xarakterikdir. Azərbaycanın da müxtəlif bölgəsində olan məscid minarələri bir-birinə bənzəmir. Bu həm də bölgələr üzrə memarlıq məktəblərinin göstəricisidir. Məsələn, Şirvan memarlıq məktəbi üçün gövdəsi silindrik və azançı meydanının daş şəbəkə ilə haşiyələnməsi, Qarabağ memarlıq məktəbi üçün silindrik gövdəsi boyunca kərpiclə düzülmüş romb şəkilli ornamentli və ağac örtüklü azançı meydanı ilə, Arran memarlıq məktəbi üçün çoxbucaqlı gövdəyə malik olan və Naxçıvan memarlıq məktəbi üçün açıq rəngli kərpic və daşla inşa edilmiş minarələr xarakterikdir. Bölgələr üzrə analoji müqayisələr məscidlərin günbəzləri timsalında da özünü göstərir.

Onu da xüsusi qeyd edək ki, İslam aləmində mövcud olan məscidlər təkcə ibadət etmək və ya dini mərasimlər keçirmək üçün deyil, onlar həm də çoxfunksiyalı ellik binalardı. Belə ki, burada toplanan çoxsaylı müsəlmanlar ibadətlə yanaşı, öz aralarında bir-birinə olan münasibəti, ünsiyyəti və birliyi möhkəmlədir. Bu barədə Azərbaycanın böyük astronomiya alimi Nəsrəddin Tusinin qeydləri çox önəmlidir. O yazır: "Təbii ünsiyyət insan

Şəkil 10. Cilovxanlı məscidi

Şəkil 11. Ordubad şəhər Came məscidi

Şəkil-12. Heydər məscidi

Şəkil 13. Şərur şəhər məscidi

Şəkil 14. Nehrəm kənd məscidi



Şəkil 15. Heydər məscidi

xassələrindəndir... Həqiqi hikmət sahibləri bu xüsusiyyətin şərəfli olduğunu nəzərə alaraq, onu inkişaf etdirmək üçün bir sıra faydalı tədbirlər düşünmüşlər, məsələn, müxtəlif qayda-qanun, ədəb-ənənə icad etmişlər, camaata ibadətlə məşğul olmağı, ziyafət təşkil etməyi məsləhət görmüşlər. Bunların hamısı ünsiyyəti qüvvədən hərəkətə gətirmək, əməli etmək üçündür."

Sonra alim məhəllə məscidlərində tək namaz qılmaqla yanaşı, həftədə bir dəfə camaatla birgə cümə namazının qılınmasın və ildə iki dəfə geniş tutumlu meydanda toplanıb ibadət etməyin üstünlüyünü izah etmişdi. Bundan başqa alim dünya müsəlmanlarının, müxtəlif peşə sahiblərinin ömründə bir dəfə Kəbəni ziyarət etməklə həm qarşılıqlı mədəni ünsiyyətin vacibliyi, həm də havasını dəyişməklə sağlamlıq üçün faydalı olması haqda geniş izah vermişdi.

Qeyd olunduğu kimi, Azərbaycanın başqa bölgələri ilə yanaşı, Naxçıvan ərazisində də qədim məscidlər kifayət qədərdir. Bu sırada həm məhəllə və həm də cümə məscidləri var. Burada ən qədim məscid Memar Əcəminin 1187-ci ildə Atabəylər memarlıq kompleksində inşa etdiyi came hesab edilir (Şəkil-9). Təəssüf ki, o XX əsrin əvvəllərində hansı səbəbdənsə dağılmış və zəmanəmizə qədər gəlib çatmamışdı. Lakin XIX əsrdə çəkilmiş foto və qrafik əsərlər bu monumental came haqqında dolğun təsəvvür yaradır. Bununla bağlı V.A. Engelqardın XIX əsr məlumatı xüsusi maraq doğurur. O, yazır: "Bu türk məscidi yonulmuş daşdan qurulmuş tağları olan iri tikilidir və onun içərisində yüksək səviyyəli işlənmiş müxtəlif yapma (gəctəraşlıq) naxışlar görünür. Binanın bir bölümü artıq uçmuşdur, qalanı isə uçmaq təhlükəsindədi. Ondan 50 sajen (təqribən 107 m) aralıda vaxtilə bu məscidə aid olan və yanlarında hər biri 10 sajen (təqribən 42 m) ucalıqda qoşa minarəli qapı var. Məscidlə qapı arasındakı məkanı əvvəllər məscidə aid olan yardımçı tikililər tutmuş, indi isə bu tikililər artıq olmayanda elə təsəvvür yaranır ki, qapı ona çox yaxın olan xüsusi qülləyə (Mömünəxatun türbəsi) məxsusdur."

Araşdırmalar göstərir ki, Naxçıvan ərazisində tarixən inşa edilmiş məscidlərin bəziləri dağılsa da onların əksəriyyəti bu günümü-

zə qədər gəlib çatmışdır. XVIII əsrdə Naxçıvan şəhərində Məhəmməd Təqi tərəfindən inşa olunan və "Şəhər məscidi" kimi tanınan Came, Ordubad rayonunun Nüsnüs kəndində yerləşən və yerli əhali arasında "Qırx kimsənə" adı ilə məşhur olan məscid (XIV əsr), Babək rayonuna məxsus Cəhri kəndinin Cilovxanlı məhəlləsində yerləşən "Cilovxanlı məscidi" (XV əsr), Ordubad şəhər Came məscidi (XVII əsr) və adları qeyd olunmayan neçə-neçə məscidlər elə bu qəbildən olan memarlıq abidələridir. Bu gün də şəhərdə və eləcə də ona məxsus rayonlarda məscid tikmə ənənəsi uğurla davam edir. Bu baxımdan, son dövrlərdə inşa edilmiş Heydər məscidi (1996-cı il. Şərur rayonun Aşağı Aralıq kəndi), Şərur şəhər məscidi (2009-cu il), Nehrəm kənd məscidi (2016-cı il, Babək rayonunun Nehrəm kəndi), Heydər məscidi (1996-cı il. Babək rayonun Çeşməbasar kəndi), Əbrəqunus məscidi (2013-cü il. Culfa rn. Əbrəqunus kəndi) və s. elə bu qəbildən olan məscidlərdir. Belə dini binalardan da biri və ən möhtəşəmi Naxçıvan şəhərinin axarlı-baxarlı yerində ucaldılmış "Heydər məscidi" kompleksidir...

Sonda qeyd edək ki, 44 günlük Vətən Müharibəsində əldə edilmiş qələbədən

Şəkil 16. Naxçıvan şəhər Came məscidi

sonra çağdaş Naxçıvan Muxtar Respublikasının iqtisadi və mədəni həyatı yeni vüsət alıb. Belə ki, burada mövcud olan tarix və mədəniyyət abidələri bərpa olunur, yeni-yeni mülki, inzibati binalar, mühəndisi qurğular tikilir və geniş miqyaslı abadlıq işləri aparılır. Yeni istifadəyə verilmiş möhtəşəm "Heydər Məscidi" kompleksi də naxçıvanlıların bu qəbildən olan növbəti uğurlu işidir. Naxçıvanın dahi memarı Əcəmi demişkən: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar" .

Naxçıvanlılar bu devizlə yaşayır, belə işləri ilə haqlı olaraq fəxr edir, öyünür və hər il inşa etdikləri möhtəşəm sənət əsərləri ilə yeni-yeni tarix yazır... ●

Şəkil-17. Heydər məscidi